# Ötən il inzibati ərazilərdə sosial-iqtisadi sahədə mühüm layihələr həyata keçirilib

## İcra nümayəndəliklərinin hesabat yığıncaqlarından:

### Qəbələ

***Yanvarın 10-dan 30-dək rayonun inzibati ərazi nümayəndəliklərində ötən ildə görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə dair ənənəvi hesabat yığıncaqları keçirilmişdir.***

***Aşağıda son günlər keçirilən hesabat yığıncaqları haqqında məlumatı dərc edirik.***





Yanvarın 30-da Qəbələ Şəhər İnzibati Ərazi Nümayəndəliyininin 2016-cı ildə sosial-iqtisadi sahədə gördüyü işlər, 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.

Yığıncaqda şəhər inzibati ərazi nümayəndəsi Dəmir Bağırov ötən il şəhərdə sosial-iqtisadi sahədə həyata keçirilən layihələr, aparılan abadlıq-quruculuq işləri ilə bağlı geniş məruzə etmişdir. Məruzəçi hesabat ilində idarə və müəssisələrin şəhərin abadlaşdırılması, şəhər əhalisinin sosial problemlərinin həll edilməsi istiqamətində gördükləri işlərə dair ətraflı məlumat vermişdir.

Məsələ ətrafında şəhər 5 nömrəli tam orta məktəbin direktoru Zərnişan Ağamirzəyeva, 3 nömrəli uşaq bağçasının müdiri Natəvan Əfəndiyeva, Ağsu Regional Qaz İstismar İdarəsinin Qəbələ Xidmət sahəsii üzrə rəis müavini Sübhi Bayramov çıxış etmişlər.

İclasda iştirak edən rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov 2016-cı ildə şəhər icra nümayəndəliyi tərəfindən sosial-iqtisadii sahədə görülmüş işləri ətraflı təhlil etmiş, görüləcək işlər, həyata keçiriləcək layihələr barədə danışaraq icra nümayəndəliyinin 2017-ci ildə fəaliyyətinin istiqamətləndirilməsi üçün tövsiyələrini vermişdir.

Toplantıda qərar layihəsi qəbul edilmişdir.

***"Qəbələ".***

### Nohurqışlaq

Nohurqışlaq kənd İnzibati Ərazi Nümayəndəliyində 2016-cı ildə görülmüş işlərə və 2017-ci ildə qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilmişdir. Qəbələ Rayon İcra Hakimiyyəti başçısının Noşurqışlaq Kənd İnzibati Ərazisi üzrə nümayəndəsi Babək Məsimov hesabat məruzəsi ilə çıxış etmişdir.





Məruzədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ildə ölkəmizdə və rayonumuzda sosial-iqtisadi sahələrdə həyata keçirilən tədbirlər barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Nohurqışlaq kəndi də rayonumuzda həyata keçirilən quruculuq işlərindən, yeni iqtisadi inkişaf proqramlarından kənarda qalmamışdır. Kəndin mərkəzindəki asfalt yolda lazımi təmir, abadlıq işləri görülmüş, kəndarası yollara qum-çınqıl tökülərək hamarlanmışdır. Kəndin qazlaşdırılması tam başa çatmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalının daha da artırılması barədə ölkə başçısının çağırışına uyğun olaraq bu sahəyə diqqət artırılmışdır.

Hesabat yığıncağında çıxış edənlər nümayəndəliyin fəaliyyətinə «kafi» qiymət verilməsini təklif etdilər.

Bununla belə kənddə bir ədəd artezian quyusunun qazılmasına kömək göstərilməsi inzibati ərazi nümayəndəliyindən xahiş olundu.

Hesabat yığıncağında iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev inzibati ərazi nümayəndəliyinin fəaliyyətini geniş təhlil edərək buraxılan nöqsanların aradan qaldırılması və qarşıda duran vəzifələrin icra edilməsi üçün təkliflərini bildirdi.

***"Qəbələ".***

### Həmzəli

Həmzəli kənd İnzibati Ərazi Nümayəndəliyində keçirilən hesabat yığıncağında 2016-cı ildə görülmüş işlərə dair ərazi nümayəndəsi Nazir Cabbarov məruzə etmişdir. Nümayəndə bildirmişdir ki, 2016-cı ildə kənd camaatının çoxdankı arzusu yerinə yetmiş, kəndə təbii qaz verilmişdir.





Nümayəndəlik bələdiyyə ilə birlikdə kənd təsərrüfatı məhsulu istehsalı ilə məşğul olan fermerlərə, fərdi sahibkarlara imkan daxilində kömək göstərmişdir.

Kəndin abadlığı üçün müntəzəm iş aparılır. Kənddəki Şeyx Baba piri ölkə miqyaslı abidə olmaqla turistlərin və çoxsaylı ziyarətcilərin gəldiyi məkandır.

2016-cı ildə burada da abadlıq işləri görülmüş ətrafı dəmir məhəccərlə hasarlanmışdır. Məktəb, tibb məntəqəsi, uşaq bağçası nümayəndəliyin gündəlik diqqətindədir.

Yığıncaqda Həmzəli kənd tam orta məktəbinin direktoru Soltan Əmirfətov, kənd ağsaqqalı Əmir Cəfərov, bələdiyyə sədri İsrafil Mustafayev, kənd sakini Elşən Rəşidov, gənclərin nümayəndəsi Nuranə Muradova və digərləri çıxış etmişlər.

Çıxış edənlər nümayəndəliyin 2016-cı ildəki fəaliyyətini "kafi" qiymətləndirmiş, görüləcək işlər barədə bir sra təkliflər vermişlər.

Hesabat yığıncağında iştirak edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxışında ərazi nümayəndəliyinin fəaliyyətini müasir tələblər baxımından dəyərləndirmiş, qarşıda duran vəzifələrdən danışmışdır.

Hesabat yığıncağında qərar layihəsi müzakirə olunaraq qəbul edilmişdir.

***"Qəbələ".***